## İnvestisiya qiymətli kağızın növü: səhm

Səhmlərin növü: **adi, adlı, sənədsiz**

Dövlət qeydiyyatı nömrəsi: **AZ1003002024**

Nominal dəyəri: **2,72 ( iki manat yetmiş iki qəpik) manat**.

Səhmlərin ümumi sayı: **50 808 968 (əlli milyon səkkiz yüz səkkiz min doqquz yüz altmış səkkiz) ədəd**.

**Səhmdarların hüquqlarına aşağıdakılar daxildir:**

- bankın idarə edilməsində qanunvericiliklə və bankın nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarə etmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, bankın fəaliyyətinə dair məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- bankın səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- bankın səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- bankın səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- bankın fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- bankın xalis mənfəətindən dividend almaq;
- Bank fəaliyyətinə xitam verildikdə, Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- qanunvericiliklə və bankın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.